İYUN-AVQUST 2017

# Rüblük icmal

## “2007-2015-Cİ İLLƏRDƏ AZƏRBAYCAN GƏNCLƏRİNİN XARİCİ ÖLKƏLƏRDƏ TƏHSİLİ ÜZRƏ DÖVLƏT PROQRAMI”

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ



## RÜBLÜK İCMALIN MƏQSƏDİ

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təqaüdçüləri təhsil aldıqları universitetlərdə yüksək akademik göstəricilər nümayiş etdirməklə yanaşı, eyni zamanda Azərbaycan tarixi və mədəniyyətinin təbliğində, Dağlıq Qarabağ münaqişəsi və ölkəmiz üçün digər əhəmiyyətli mövzular ətrafında dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayırlar.

2014-cü ildən etibarən Təhsil Nazirliyi Dövlət Proqramı çərçivəsində təhsil alan və məzun olmuş təqaüdçülərin uğurlarının və müvəffəqiyyət hekayələrinin ictimaiyyətə çatdırılması üçün "Rüblük İcmal” layihəsini təqdim edir. Rüblük İcmalın bütün buraxılışları ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz: **http://xaricdetehsil.edu.gov.az/c-dphaqqinda/rblkicml/**

## İCMAL:


**Tədbirlər və nailiyyətlər**

**Fərqlənmə ilə universiteti bitirən Məzunlarımız**

**Tələbələrimizin töhfələri**



# GƏNC PİANOÇUMUZ

***“2007-2015-Cİ İLLƏRDƏ AZƏRBAYCAN GƏNCLƏRİNİN XARİCİ ÖLKƏLƏRDƏ TƏHSİLİ ÜZRƏ DÖVLƏT PROQRAMI”***

## *TƏQAÜDÇÜMÜZ BEYNƏLXALQ MÜSABİQƏDƏ 2-Cİ YERƏ LAYİQ GÖRÜLMÜŞDÜR*

Dövlət Proqramı çərçivəsində Almaniyanın Köln Ali Musiqi Məktəbində fortepiano sahəsi üzrə təhsil alan, Prezident təqaüdçüsü Toğrul Hüseynli İspaniyanın Qranada şəhərində keçirilən Pianoçuların VII Beynəlxalq Müsabiqəsində uğur qazanmışdır.

Müsabiqəyə Azərbaycan, ABŞ, Rusiya, B.Britaniya, İspaniya, Fransa, İtaliya, Çin və digər ölkələrin məşhur pianoçuları qatılmışdır.

Münsiflər heyəti isə İspaniya, Fransa, Rusiya, Braziliya və Maltanın tanınmış musiqiçilərindən təşkil olunmuşdur. Təqaüdçümüz T.Hüseynli müsabiqədə 2-ci yerə layiq görülmüşdür.



# FƏRQLƏNMƏ İLƏ UNİVERSİTETİ BİTİRƏN MƏZUNLARIMIZ



**EYVAZ ƏHMƏDZADƏ**

Dövlət Proqramı çərçivəsində M.V.Lomonosov adına Moskva Dövlət Universitetində "Asiya və Afrika ölkələrinin institutu" sahəsi üzrə bakalavriat təhsil səviyyəsindən yüksək akademik göstəricilərlə məzun olmuşdur. Universitet üzrə 5 ballıq akademik qiymətləndirmə üzərindən bütün fənlər üzrə ən yüksək nəticə göstərərək **(5 bal ilə)** fərqlənmə diplomu ilə məzun olmuş və medal ilə təltif olunmuşdur.



**LƏZİFƏ KƏRİMLİ**

Dövlət Proqramı çərçivəsində Türkiyənin Bilkent Universitetində "Beynəlxalq əlaqələr" ixtisası üzrə bakalavr təhsili almışdır. Universitetin akademik qiymətləndirməsinə uyğun olaraq 4 ballıq sistemdən **3.23** nəticə göstərərək "şeref öğrencisi" adını qazanmışdır.



**NƏRMİN ƏLİYEVA**

Litvanın Kaunas Texnologiya Universitetində "İnformatika" ixtisası üzrə bakalavr təhsili almışdır. Universitetin 10 ballıq qiymətləndirmə sistemi üzərindən **9.12** nəticə göstərmişdir və təhsilini uğurla başa vurmuşdur.




**CƏMİLƏ ƏHMƏDOVA**

DP çərçivəsində Türkiyənin "Orta Doğu Teknik Üniversitesi" ali təhsil müəssisəsində "Biologiya" ixtisası üzrə bakalavr təhsili almışdır. Akademik qiymətləndirmə sistemi üzərindən 3.34 nəticə göstərmiş, fərqlənmə ilə təhsilini başa vurmuşdur.



**SEVİNC HÜSEYNBƏYOVA**

B.Britaniyanin Liverpul Universitetində "Biznes iqtisadiyyatı" ixtisası üzrə bakalavr təhsili almışdır. Təhsilini 4 ballıq qiymətləndirmə sistemi üzərindən **3.63** bal ilə müvəffəqiyyətlə tamamlamışdır.



**CEYLA SEYİDOVA**

Dövlət Proqramı çərçivəsində Rusiyanın Çaykovski adına Moskva Dövlət Konservatoriyasında "Skripka" ixtisası üzrə bakalavr təhsili almışdır. Universitet üzrə 5 ballıq akademik qiymətləndirmə üzərindən bütün fənlər üzrə ən yüksək nəticə göstərərək (**5 bal ilə**) fərqlənmə diplomu ilə məzun olmuşdur.



**VÜSALƏ QULİYEVA**

Türkiyənin Hacettepe Universitetində Dövlət Proqramı çərçivəsində "İdarəetmə" sahəsi üzrə bakalavr təhsili almış almışdır. Təhsilini 4 ballıq qiymətləndirmə üzərindən **3.42** bal ilə uğurla başa vurmuşdur.

# "BUCKYBALL SANDWICHES" ELMİ MƏQALƏSİ NANOTEXNOLOJİ JURNALDA



## DP təqaüdçüsünün uğurlu ixtirası

**"Nature Nanotechnology"jurnalında**

Dövlət Proqramı çərçivəsində Avstriyanın Vyana Universitetində "Fizika" ixtisası üzrə doktorantura təhsili alan **Rasim Mirzəyev** karbonun 2 qeyri-adi allatropunu "sendviç" şəklində bir araya gətirərək yeni bir nanotexnoloji material ixtira etmişdir. Belə ki ilk dəfə olaraq iki qrafen qatının arasında fulleren mollekullarının tək qatının yerləşdirilməsinə nail olmuş və daha sonra elmi işçilərlə birgə elektron mikroskop altında bu maddənin tək layının ilk dəfə görüntülənməsinin şahidi olmuşdur. Onu da qeyd edək ki, "sendviç" metodu elektron mikroskopda molekulyar dinamikanın araşdırılmasına imkan yaradır.

Bu materialın ixtirası nanoelektronika sahəsində potensial tətbiqə malikdir. Bununla yanaşı bu metod gələcəkdə başqa molekulların strukturunun və dinamikasının araşdırılmasına yol açacaqdır. Nanotexnologiya sahəsindəki ixtiraların tətbiqi və sənayede istehsalı uzun illər alır. Fərdi atomların və molekulların atomik səviyyədə sintezi, manipulyasiya edilməsi, strukturunun və xüsusiyyətlərinin araşdırılması nanotexnologiyanın əsas sahələrindən biridir. Bu məqsədlə ixtira olunmuş material ilə bağlı məqalə dünyanın ən yüksək reytinqli nanotexnologiya jurnalı olan **"Nature Nanotechnology"**də "Research Highlights" başlığı altında dərc olunmuşdur. Ətraflı >>

# MƏZUNLARIMIZIN "START-UP"UĞURLARI







## DP məzunumuzun startapı beynəlxalq müsabiqədə 1-ci yerə layiq görülmüşdür

Dövlət Proqramı çərçivəsində B.Britaniyanın Birminqem Universitetindən "Kimya mühəndisliyi" ixtisası üzrə məzun olmuş Günel Ağabəylinin "Hypo Life" adlı qrup şəklində reallaşdırılan layihəsi Bakı Mühəndislik Universiteti Texnoparkının iyun ayında təşkil etdiyi Yeni Fikir Müsabiqəsində 2-ci yerə layiq görülərək pul mükafatı qazanmışdır.

Hypo Life layihəsində əsas məqsəd Azərbaycanda əhaliyə verilən içməli suyun dezinfeksiyası üçün təhlükəsiz ekoloji təmiz məhsulla (natrium hipoxlorit) təmin etməkdir. Hal-hazırda suyun dizenfeksiyası insan sağlığını təhdid edən molekulyar xlorla aparılır. Məhsulun innovativ və keyfiyyətli şəkildə istehsalı layihə icraçılarının üzərində durduğu əsas meyarlardan biridir. Azərbaycanda mövcud olan potensialı: duz, su, katalizator(Azərbaycanda tapılan təbii mineral) və elektrik işlətməklə məhsulu əldə etmək mümkün olacaqdır.

Məzunumuzun komanda şəklində həyata keçirdiyi digər "Co2ATALYSER" adlı layihəsi isə avqust ayında Azərbaycanın bu il ilk dəfə qoşulduğu və 37 ölkənin iştirak etdiyi dünyanın ən böyük "green" biznes ideya müsabiqəsi olan Climate Launchpad proqramının Azərbaycan finalında 1-ci yerə layiq görülmüşdür. İlk 10 yeri tutan startap layihəsi 18 aylıq "Climate-KIC Accelerator" proqramına qəbul olmaq şansı qazanmışdır.

## "Maliyya", Azərbaycanlılar tərəfindən qurulmuş innovativ maliyyə texnologiyası (fintech) startap-ı Dubay Beynəlxalq Maliyyə Mərkəzinin (DIFC) Fintech Hive Biznes Akseleratorunun ilk qrupuna seçilmişdir

Fintech Hive regionun ilk maliyyə texnologiyaları akseleratorudur. "Maliyya" startap-ı İslam prinsiplərinə əsasən inveestorlarla borcalanları bir araya gətirən və maliyyə xidmətləri sənayesində inqilab etməyi hədəfləyən platformadır. "Maliyya" startap-ı 30 ölkəni təmsil edən 100-dən çox startap arasından dan seçilmiş 11 startap-dan biridir. Seçim beynəlxalq konsultant şirkəti olan Accenture, Dubay Beynəlxalq Maliyyə Mərkəzi (DIFC) və partnyor maliyyə qurumları tərəfindən bu meyarlara əsasən aparılmışdır: təklif edilən innovasiyanın unikallığı, bazarda müəyyən bir boşluğu doldurması və sənayenin və istehlakçıların ehtiyaclarını ödəməsi.

Akselerator proqramı Accenture şirkəti ilə bərabər həyata keçirilməklə regionun maliyyə xidmətləri sənayesinin ehtiyaclarını ödəmək üçün yeni nəsil texnoloqgiya liderlərini və sahibkarları bir araya gətirir. Proqram 2017-c il Avqust ayının 21-də başlayır və 3 ay müddətində dünyanın aparıcı beynəlxalq və yerli maliyyə qurumları, texnologiya və hüquq şirkətləri tərəfindən startap-lara sıx texniki və məsləhət dəstəyini təmin edir.

Maliyya startap-ı Dövlət Proqramı məzunumuz Ramil Məhərrəmov və Cəfər Babayev tərəfindən təsis edilmişdir.Onların menecment konsaltinq, investisiyaların idarə edilməsi, hüquqi məsləhət, İslam bankçılığı, strategiya idarəetməsi və biznesin inkişafı üzrə 30 ildən çox təcrübələri vardır.

# TARİX FAKÜLTƏSİNDƏN MƏZUN OLMUŞ İLK AZƏRBAYCANLI

Rüblük icmal (İYUN-AVQUST 2017)




Uğurlarını paylaşmaq istədiyimiz digər təqaüdçümüz Dövlət Proqramı çərçivəsində B.Britaniyanın "Queen Mary University of London" ali təhsil müəssisəsindən "Tarix və siyasət" ixtisası üzrə məzun olmuş **Turan Qafarlıdır.** Belə ki, o, təhsil aldığı universitetin 130 illik tarixində "Tarix" fakültəsinin məzunu olmuş ilk Azərbaycanlıdır. Eyni zamanda universitet tələbəmizi azərbaycanlı məzunlarla işləyəcək "Universitetin fəxri səfiri" vəzifəsinə layiq görmüşdür. Hal-hazırda T.Qafarlı universitetin 47 fəxri məzun səfirindən biri ünvanını daşıyır.Onu da qeyd edək ki, tarix və siyasət proqramını uğurla başa vuran təqaüdçümüzün yazdığı diplom işi 1918-ci il Bakı müharibəsi mövzusunda yeni arxiv sənədləri ortaya qoymaqla bərabər Dövlət Proqramı ilə gəncləri dəstəkləyən müstəqil Azərbaycana və onun uğrunda canından keçənlərə həsr edilmişdir.




# MƏZUNLARIN UĞURLARI:







### VÜSAL İSAYEV

Dövlət Proqramı çərçivəsində ABŞ-ın Harvard Universitetindən məzun olmuş V.İsayev 21 iyun, 2017-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Dövlət qulluğunda fərqlənməyə görə" medal ilə təltif olunmuşdur.

### SƏMAYƏ MƏMMƏDOVA

S.Məmmədova Dövlət Proqramı çərçivəsində B.Britaniyanın Nyukastl Universitetindən "Mətbuat və ictimaiyyətlə əlaqələr" ixtisası üzrə məzun olmuşdur.
Ölkə prezidenti cənab İlham Əliyevin sərəncamı ilə cari ildə KİV nümayəndəsi olaraq Səmayə Məmmədova da digər mətbuat işçiləri ilə birgə yeni mənzillə təmin olunmuşdur.

### TOĞRUL CƏFƏROV

23 iyun, 2017-ci il tarixində dövlət qulluqçularının peşə bayramı münasibətilə dövlət qulluğunda staj və sınaq müddətini müvəffəqiyyətlə başa vuran Dövlət Agentliyi və "ASAN Xidmət" mərkəzinin əməkdaşlarının andiçmə mərasimi keçirilmişdir. Bu əməkdaşlar sırasında Dövlət Proqramı çərçivəsində Fransanın "Marie-Curie University"ali təhsil müəssisəsindən "Süni intelekt və qərarvermə" ixtisası üzrə məzun olmuş Toğrul Cəfərov da vardır.




*İyun-Avqust*

# RÜBLÜK İCMAL

**“2007-2015-Cİ İLLƏRDƏ AZƏRBAYCAN GƏNCLƏRİNİN XARİCİ ÖLKƏLƏRDƏ TƏHSİLİ ÜZRƏ DÖVLƏT PROQRAMI”**

Hörmətli Dövlət Proqramı təqaüdçüləri,
Rüblük icmalın növbəti buraxılışlarında öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.

**Gülminə Məlikzadə** (gulmina.melikzade@edu.gov.az)

**Gülay Məmmədova** (gulay.mammadova@edu.gov.az)

**Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network**

**Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan Azərbaycanlı Gənclər Qrupu**

**Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network**